*UOT 159.9*

***Səidə Atəş qızı Abdullayeva***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*

***Vüsalə Elşad qızı Soltanova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# İDRAK PROSESİ ÖYRƏNMƏNİN ƏSASI KİMİ

***Саида Атеш гызы Абдуллаева***
*доктор философии по педагогике,*
*старший преподаватель Азербайджанского Государственного Педагогического Университета*

***Вусала Эльшад гызы Солтанова***
*Азербайджанский Государственный Педагогический Университет*

# ПОЗНАВАТЕЛЬНЫЙ ПРОЦЕСС КАК ОСНОВА ОБУЧЕНИЯ

***Saida Atash Abdullayeva***
*doctor of philosophy in pedagogy*
*senior lecturer at the Azerbaijan State Pedagogical University*

***Vusala Elshad Soltanova***
*Azerbaijan State Pedagogical University*

# COGNITIVE PROCESS AS THE BASIS OF LEARNING

**Xülasə.** Bu məqalədə öyrənmənin əsası olan idrak prosesinin mahiyyəti geniş şəkildə öz əksini tapmışdır. Eyni zamanda idrak prosesinin tərkib hissələri, inkişafını təmin edən təlim vasitələri yer almışdır. Bundan əlavə, məktəbəqədər yaşlı uşaqların öyrənmə prosesi, öyrənməni hərəkətə gətirən motiv, eləcə də müxtəlif hərəkətverici qüvvələr qeyd olunmuşdur. Öyrənmə prosesində tərbiyəçi müəllimin peşəkarlığı və səriştəliliyi araşdırılmışdır.

***Açar sözlər:*** *idrak, öyrənmə, fəaliyyət, məktəbəqədər yaş dövrü, təlim, motiv*

**Резюме**. В данной статье широко отражена сущность познавательного процесса, лежащего в основе обучения. При этом включаются компоненты познавательного процесса, средства обучения, обеспечивающие его развитие. Кроме того, отмечается процесс обучения дошкольников, мотивация к обучению, а также различные движущие силы. В процессе обучения исследованы профессионализм и компетентность педагога-тьютора.

***Ключевые слова:*** *познание, обучение, деятельность, дошкольный возраст, обучение, мотивация*

**Summary.** In this article, the essence of the cognitive process, which is the basis of learning, is widely reflected. At the same time, the components of the cognitive process, the training tools that ensure its development have been included. In addition, the learning process of pre-school children, the motive that drives learning, as well as various driving forces are mentioned. The professionalism and competence of the tutor teacher in the learning process was investigated.

***Key words:*** *cognition, learning, activity, preschool, learning, motivation*

Uşağın əsas idrak qabiliyyətləri çox erkən inkişaf etdiyi üçün onların təbiətinin öyrənilməsinə də çox erkən, yəni məktəbəqədər yaş dövründən başlamaq lazımdır. Məktəbəqədər yaş dövrü uşağın gələcəkdəki şəxsiyyətinin təməlinin formalaşdığı, ətrafdakı reallığın ilkin öyrənilməsində əsas olan, eyni zamanda, uşaqlarda bir subyekt kimi idrak və onun fəaliyyətinin təşəkkül tapdığı dövr hesab edilir. İdrak fəaliyyəti dedikdə, duyğu, diqqət, qavrayış, hafizə və s. kimi psixi proseslərə əsaslanan və şüurlu fəaliyyətlə nəticələnən düşüncə əməliyyatları başa düşülür. İdrak fəaliyyətini xarakterizə edən anlayışlar, yəni tanımaq, izah etmək, anlamaq, nümunə göstərmək, təhlil etmək, fərqləndirmək, müqayisə etmək, dəyərləndirmək və s. birbaşa baş beyində gedən təfəkkür proseslərinə əsaslanır. [1, s. 147]

İdrak fəaliyyətinin inkişafı problemi qədim dövrlərdən bəri müəlliflərin tədqiqatlarında mərkəzi yer tutur. Hətta Yan Amos Komenski də diqqətini bu problemin öyrənilməsinə yönəltmiş və hesab etmişdir ki, uşaqların fəallığı onlara öyrənmə prosesində çox şey əldə etməyə imkan verir. İdrak fəaliyyəti informasiyanın qəbulu, yenidən işlənməsi və yeni informasiyanın yaradılmasına istiqamətlənib, onun şüurlu tətbiqini ehtiva edir.

Fəaliyyət fərdin psixikasının, əqli inkişafının, idrak və yaradıcılıq qabiliyyətlərinin təbiətinin öyrənilməsində ümumi kateqoriya kimi şərh olunur. Hər bir elm onun fərdi nəsil, inkişaf qanunauyğunluqlarını, fəaliyyət dinamikasını öyrənir.

Uşaqlar müxtəlif fəaliyyət növləri ilə öyrənmə prosesinə daxil edilirlər. Yeni təhsil proqramlarında məzmun standartlarının bacarıq komponentlərini əhatə edən fəaliyyətin 3 növü məlumdur:

- idrak fəaliyyəti;
- kommunikativ fəaliyyət;
- psixomotor fəaliyyət [1, s. 147].

Məktəbəqədər təlim prosesində uşağın öyrənmə prosesini səciyyələndirən xüsusiyyətlər çoxdur. Onlardan bəziləri aşağıdakılardır:

- öyrənmədə idrak maraqları;
- öyrənmədə motivlərin rolu;
- öyrənmədə ünsiyyət;
- öyrənmədə uşaqların müstəqilliyi və fəallığı.

Öyrənmə – təlimin, tərbiyənin gedişində uşaqların bilik, bacarıq və vərdişlərə yiyələnməsi üzrə fəaliyyəti prosesidir. Məktəbəqədər yaşlı uşaqlar ətraf aləmi, dünyanı fəal şəkildə öyrənirlər, buna görə də bu yaş dövrü idrak fəaliyyətinin formalaşması üçün xüsusilə əlverişlidir. Ətrafda baş verənləri bilmək onun təxəyyülünü, yaddaşını, ümumiyyətlə, uşağın koqnitiv bacarıqlarını inkişaf etdirir. Məktəbəqədər yaşlı uşaqlarda öyrənmə müxtəlif formalarda baş verir. Bu yaşda uşaqlar öyrənmənin sensor, motor və sensomotor formalarını mənimsəyir. Məktəbəqədər yaşlı uşaqlarda idrak proseslərini dəstəkləyən, öyrənmə məzmunu daşıyan təlim elementlərindən, yəni yapma, aplikasiya işləri, kağız və kartondan fiqurlar hazırlamaq, nəğmə və musiqi dərsləri, praktik məşğələlər, müxtəlif oyun növləri, həmçinin böyük məktəbəqədər yaşlı uşaqlarda isə oxuma, yazma, hərəkəti öyrədən məşğələlərdən istifadə olunur.

Öyrənmə prosesi məqsədəuyğun, mütəşəkkil, planlı təşkil edildikdə ona təlim deyilir. Uşaq təlim prosesində qarşısına məqsəd qoyur, nəyi mənimsəyəcəyini bilir, faydalı olan məlumatı digərlərindən ayırıb, yadda saxlayır. Bununla yanaşı olaraq, uşaqları müntəzəm olaraq öyrətmək, xüsusilə də, ailədə, məktəbəqədər tərbiyə müəssisələrində öyrətmək lazımdır [2, s. 198].

K.D. Uşinski koqnitiv maraqları müvəffəqiyyətli öyrənmənin əsas daxili mexanizmi kimi görürdü. Pedaqoji təcrübə hər gün sübut edir ki, məktəbəqədər yaşlı uşağın idrak prosesi inkişaf etdiyi zaman, təlim fəaliyyəti daha məhsuldar olur. Pedaqoji nəzəriyyədə bu hadisə “uşaqların təlimdə fəallığı və müstəqilliyi” prinsipi kimi qeyd olunur. [6, s. 21]. İdrak maraqları uşağın öyrənmə fəaliyyətinin səmərəliliyinə güclü təsir göstərir. Məşğələlərin əhatə etdiyi biliklər və bu bilikləri öyrənmək prosesi uşaqlarda idrak maraqlarını və ehtiyaclarını yaradan amillərə aiddir.

Məktəbəqədər yaşlı uşaqlarla məşğələlərdə öyrənməni təşkil edən müxtəlif vasitələrdən istifadə olunur. Bunlardan biri də təqliddir. Öyrənmə prosesində uşaqlar həmyaşıdları və böyüklərin təsirinə tez düşür, həmçinin rollu oyunlar zamanı onlar digərlərini yamsılamağa, onlara bənzəməyə çalışırlar. Bunların hamısı uşağın öyrənməsinə təsir edir, idrakın ixtiyariliyini, əqli əməliyyatların şüurluluğunu, məqsədyönlü-

lüyünü inkişaf etdirir, uşaqları sadə bilik, bacarıq və vərdişlərlə silahlandırır.

Uşaqların öyrənmə fəaliyyətinə bəzi motivlər təsir edir. Uşaqları öyrənmə prosesinə təhrik edən psixoloji motivlər çoxdur: xalq üçün faydalı şəxs olmaq, mədəni olmaq üçün oxumaq, cəmiyyətə fayda vermək üçün oxumaq və s. Uşaqların öyrənmə fəaliyyətində mənfi motivlər də ola bilir. Məsələn, valideynin hədəsindən, yaxud, tərbiyəçinin danlağından uşağın yaxa qurtarmağa çalışması, valideyndən hədiyyə almaq üçün uşağın öyrənməyə səy göstərməsi və s. pedaqoji ədəbiyyatlarda motivasiyanın 4 növü qeyd edilmişdir:

Birinci növ oyun motivasiyası – “Oyuncağa kömək et” adlanır. Bu motiv zamanı uşaqlara oyuncağa kömək edilməsi üçün lazım olan vasitələrin öyrənilməsi təklif edilir, sonra isə uşaqlar problemi izah etmək və göstərməklə maraqlanırlar. Bu fəaliyyətin sonunda uşağın işi qiymətləndirilir və yekunda uşaq mütləq təriflənir.

İkinci növ böyüklərə kömək etmək motivasiyası – “Mənə kömək et” adlanır. Bu zaman uşaqlar üçün başlıca məqsəd böyüklərlə ünsiyyət, kömək üçün təsdiq alma imkanı, həmçinin böyüklərlə birlikdə həyata keçiriləcək işlərə maraq göstərməkdir. Fəaliyyətin sonunda qeyd etmək lazımdır ki, nəticə hamının birgə işi nəticəsində əldə edilib və bu nəticəyə hamı birlikdə nail olub.

Üçüncü növ – “Mənə öyrət” adlanır. Bu motiv uşağın özünü bilikli və bacarıqlı hiss etmək istəyinə əsaslanır. Burada uşaqlara müəyyən bir fəaliyyət göstərmək istədiyinizi söyləyir və onlardan bunu sizə öyrətmələrini xahiş edirsiniz.

Dördüncü növ – “Öz əllərimizlə əşyalar yaratmaq” adlanır. Bu motiv uşağın daxili maraqlarına əsaslanır. Burada uşaqlar öz istifadələri və sevdikləri insanlar üçün əşyalar yaratmağa təşviq edilir [ 5, s. 148 ].

Öyrənmə motivləri uşağın təlim fəaliyyətinə təkan verən daxili psixoloji qüvvələrdir və mənimsəmənin səmərəliliyinə təsir göstərir. Onları tərbiyəçi müəllim bilməli, öyrənmə prosesi zamanı nəzərə almalı və lazım gəldikdə formalaşmasına düzgün istiqamət verməlidir.

Öyrənmənin məktəbəqədər yaşda aparıcı fəaliyyət olmadığını bilmək və məşğələlərin buna uyğun təşkil edilməsi zəruridir, burada başlıca məqsəd uşaqları məktəb təliminə hazırlamaqdan ibarətdir.

Məktəbəqədər yaşlı uşaqların təlim məşğələləri, əsasən, planlı və müvafiq proqram üzrə aparılır. Məktəbəqədər yaş dövrü zamanı məşğələlər 10 dəqiqədən başlayaraq tədricən 25-30 dəqiqəyə çatdırılır. Böyük məktəbəqədər yaş qruplarında isə hər gün 2 məşğələ keçilir, arada 10 dəqiqəlik fasilə ilə tədricən məktəbin I sinfinin iş rejiminin və məşğələlərinin sayına yaxınlaşdırılır [ 2, s. 197].

Bildiyimiz kimi, hər cür öyrənmənin, dərketmənin əsas vasitəsi idrak prosesləridir (diqqət, qavrayış, təfəkkür və s.). İdrak əməliyyatları digər psixoloji proseslərdən: hafizədən, təsəvvürdən, təxəyyüldən, iradədən, müşahidədən və s. ayrılmazdır. Qeyd edilənlərin hər biri uşağın öyrənmə fəaliyyətinin tərkib hissələridir. Çünki, öyrənmə prosesinə cəlb edilən uşaq verilən tapşırığı başa düşməli, onu qəbul etməli, icrası üçün hansı əməliyyatın lazım olduğunu müəyyənləşdirməli, bu əməliyyata başlamalı, qarşılaşdığı çətinlikləri dəf etməli, müəyyən nəticəyə gəlməlidir.

Məktəbəqədər yaşlı uşaqlarda idrakın inkişafı onlarda öyrənməyə həvəs və maraq formalaşdırır. Məktəbəqədər yaşlı uşağın idrak fəaliyyətində sistemlilik, ardıcıllıq, əlaqəlilik, həyat şəraitinə uyğunluq mühüm şərt hesab olunur. Məktəbəqədər yaş dövründə uşaq idrakın inkişafı baxımından, ilk növbədə, sadə danışıq dilinə və rabitəli nitqə yiyələnir, ətrafdakılarla ünsiyyət qurur, öz fikirlərini ifadə etməyi öyrənir. Uşaqlar təmasda olduqları əşyaların adlarını, əlamətlərini, necə hərəkət etməsini düzgün ifadə edir, bu istiqamətdə məntiqi mühakimə yürütmək, düzgün, sadə ümumiləşdirmələr aparmaq, əqli nəticəyə gəlmək qabiliyyəti nümayiş etdirirlər. İdrak üzrə uşağın yerinə yetirdiyi tapşırıqlar onların məntiqi mühakimə yürüdə bilmək bacarıqlarını, intuisiyalarını, məkan və zaman haqqında təsəvvürlərini genişləndirir.

Nəzəri təhlil göstərir ki, müəlliflər idrak fəaliyyətini nəzərdən keçirərkən onun müxtəlif aspektlərini ortaya qoyurlar, lakin onları fərqləndirən əsas şey uşağın fəaliyyətdə hansı mövqe tutması və böyüklərin bu prosesdə hansı rol oynamasıdır. D.N. Godovikova idrak fəaliyyətin təzahürünün üç mərhələdə baş verdiyini qeyd edir. Birinci mərhələdə uşaq yalnız obyektlərin

xarici xüsusiyyətlərinə və keyfiyyətlərinə, eləcə də ona artıq tanış olan obyektlərə maraq göstərir. İkinci mərhələdə uşaq obyektin yeni funksiyalarını öyrənməyə çalışır, bu zaman böyüklər köməkçi rolunda çıxış edir. Üçüncü mərhələdə uşaq mövzunun yeni məzmunu ilə maraqlanır. Maraq və fəallıq yeni fənn üzrə biliyin olmamasından yaranır. Uşaqların idrak fəaliyyətinin formalaşmasında valideyn və tərbiyəçi müəllimlər vasitəçi rola malikdir. Uşağın fəaliyyət zamanı nə dərəcədə müşahidəçi və müstəqil olacağı, həmçinin, ona məlum olmayan bilik, bacarıq, vərdişləri əldə etmək yollarını seçmək ondan asılıdır. Məktəbəqədər yaşlı uşaqlar onları əhatə edən ətraf aləmi müxtəlif suallar vasitəsi ilə öyrənirlər. Bu səbəbdən, ilk növbədə, uşaqlara düzgün suallar verməyi öyrətmək çox vacibdir. Aktiv zehni fəaliyyət idrak fəaliyyətinin ən vacib komponentidir. Ona görə də uşağın düşünməsi, sual verməyi bacarması və fikrini bölüşməsi vacibdir. Məktəbəqədər yaşlı uşaqlarda idrak fəaliyyətinin formalaşması ətraf aləmin obyektləri haqqında biliklərə və ətraf mühitə münasibətinə uyğun olaraq tədricən baş verir.

Tərbiyəçi müəllimlərin əsas vəzifəsi uşaqların müxtəlif fəaliyyətlərə marağını dəstəkləmək, stimullaşdırmaq, həvəsləndirmək, öyrənməyə olan ehtiyacı ödəməkdir. Müəllimin humanist mövqeyi uşağın şəxsiyyətini, hal-hazırda malik olduğu bilik səviyyəsini qəbul etmək və bunu nəzərə alaraq onu təlim prosesinə daxil etməkdən ibarətdir. Tərbiyəçi müəllimlər müxtəlif yaş dövrlərinə əsasən uşaqlarda oyun və öyrənmə fəaliyyətini inkişaf etdirərkən bir sıra fərdi xüsusiyyətləri nəzərə alır. Tərbiyəçi öz işində fərdi diferensial yanaşmadan istifadə edir ki, bu da hər bir uşağın müsbət istiqamətdə inkişafını nəzərdə tutur. Hansı ki, bu yanaşmanı müxtəlif cins və müxtəlif temperament tipli uşaqlar üçün istifadə etmək mümkündür. Məktəbəqədər yaşlı uşaqların idrak maraqlarının ödənilməsi, onların təlimi uşaqların yaş və fərdi inkişaf xüsusiyyətlərini nəzərə almaqla həyata keçirilir.

Beləliklə, idrak fəaliyyəti "qavrayış, təfəkkür, yaddaş, diqqət, nitq kimi psixi proseslərin köməyi ilə ətrafdakı reallığı dərk etməyə yönəlmiş şüurlu fəaliyyət" kimi qəbul edilir. İdrak fəaliyyəti subyektin şüurlu fəaliyyəti kimi reallığın obyektləri və hadisələri haqqında məlumat, habelə konkret biliklər əldə etməyə yönəlmişdir.

**Problemin aktuallığı.** Hal-hazırda məktəbəqədər yaşlı uşaqlar, təlim-tərbiyə proseslərinin uşaqların inkişafına təsiri, bu prosesin tərkibində olan idrak valideynlərin, müəllimlərin, bu sahədə fəaliyyətə başlayan mütəxəssislərin daha da maariflənməsi məsələsini aktuallaşdırır.

**Problemin elmi yeniliyi.** Məktəbəqədər yaşlı uşaqların idrak fəaliyyətinin, öyrənmə prosesinin geniş şəkildə öyrənilməsi, idrak fəaliyyətinin, eləcə də öyrənmənin inkişafının tərkib hissələri və digər komponentlər nəzəri cəhətdən araşdırılmışdır.

**Problemin praktik əhəmiyyəti.** Bu məqalədən məktəbəqədər müəssisələrdə fəaliyyət göstərən pedaqoji kadr, tərbiyəçi müəllimlər, eyni zamanda valideynlər, bu sahədə araşdırma aparan tələbələr və digər şəxslər yararlana bilər.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu – Standart və kurikulumlar: nəzəri və praktik məsələlər. - Bakı, 2016.
2. Qədirov, Ə.Ə. Yaş Psixologiyası. / Ə.Ə. Qədirov. -Bakı, 2008.
3. Vəliyev, M. İnkişaf və yaş psixologiyası. / M. Vəliyev, A. Mustafayev. -Bakı, 2015.
4. Həsənova, P. Məktəbəqədər təhsil müəssisələrində öyrənmə - idrak fəaliyyəti. / P. Həsənova. -Bakı: Mütərcim, – 2019.
5. Rzayeva, S. Uşaqlarda idrak fəallığı // "Təhsil problemləri" qəz. - 2015, 16 fevral.
6. Лисина, М.И. Развитие познавательной активности детей в ходе общения со взрослыми и сверстниками / М.И. Лисина // Вопросы психологии. – 1982.


**E-mail:** s.vusale.99@gmail.com

**Rəyçilər:** *ped.ü. fəls.dok.*, **İ.B. Əmirəliyeva,**
*ped.ü. fəls.dok.*, **P.A. Cəfərova**
**Redaksiyaya daxil olub:** 01.03.2023